# Geosiyasi və iqtisadi baxımdan bütöv bir coğrafiyanın yenidən bərpası

**Zəngəzur dəhlizi yeni tarixi şəraitdə iqtisadi və siyasi baxımdan köhnə coğrafiyanın yenidən bərpası hadisəsidir. Bu səbəbdən də dəhlizin hansı şərtlərdə, hansı hüquqi statusda və hansı rejimdə açılması məsələsi təkcə Azərbaycan üçün deyil, bütövlükdə Anadolu, Cənubi Qafqaz və Mərkəzi Asiya regionuna marağı olan bütün aktorların diqqət mərkəzindədir.**



**Hikmət BABAOĞLU,**
**Milli Məclisin deputatı.**

Zəngəzur dəhlizi, sadəcə, nəqliyyat-kommunikasiya vasitəsi deyil, eyni zamanda, mühüm geostrateji layihədir. Ona görə də nə zaman bu dəhlizdən və onun hüquqi statusundan danışılırsa, dünyanın ən strateji güc mərkəzlərində bu məsələyə dərhal münasibət bildirilir, proseslərə müdaxilə cəhdləri müşahidə olunur. Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumunda Zəngəzur dəhlizinin təkcə Azərbaycan üçün deyil, bütövlükdə region üçün strateji əhəmiyyətini bir daha vurğulaması da bu səbəbdəndir. Əgər bu dəhlizə sırf iqtisadi, kommunikasiya funksiyası baxımından yanaşsaq və imperialist maraqları kənara qoysaq görərik ki, burada çox böyük perspektivlər var. Bu baxımdan maraqlar uzlaşdırıla bilər. Ancaq Ermənistan müxtəlif hüquqi manipulyasiyalarla bu dəhlizin açılmasını öz suverenliyinə təhdid kimi görür və onu dəstəkləyən xarici qüvvələr də bu yanaşmanı müafiə etdirirlər. Eyni zamanda, bəzi güc mərkəzlərinin də dəhlizdə nəzarət rıçaqları əldə etmək cəhdləri onun açılmasını əngəlləyir.

Bu, eyni zamanda, dəhlizə müxtəlif geostrateji prizmadan baxışın nəticəsidir. Belə mürəkkəb vəziyyətdə dəyişməyən və aydın olan Azərbaycanın mövqeyidir. Azərbaycan beynəlxalq hüquqa əsaslanaraq, öz ərazisindən öz ərazisinə maneəsiz keçid istəyir. Dünyada belə nümunələr kifayət qədərdir. Prezident İlham Əliyev bəyan edib ki, sovet dövründə belə bu dəhliz təhlükəsiz deyildi, ona görə də bu gün Azərbaycan vətəndaşlarının istifadə edəcəkləri Zəngəzur dəhlizinin xüsusi təhlükəsizlik rejimi olmalıdır. Bir zamanlar İrəvan-Bakı qatarı ilə gedib gələn biri kimi yaxşı xatırlayıram ki, o vaxt İrəvan-Bakı qatarı bu dəhlizdən keçirdi və texniki xidmət Azərbaycan SSR-in Dəmir Yolları tərəfindən təmin edilirdi. Dəhliz üzərində yerləşən stansiyalarda satılan biletlər "Azərbaycan Dəmir Yolları"na aid idi və bu, biletlərin üzərində açıq şəkildə göstərilirdi. Həmin stansiyalarda çalışan texniki heyət və kommunikasiya mühəndisləri məhz "Azərbaycan Dəmir Yolları"nın əməkdaşları idi və əməkhaqlarını da Azərbaycandan alırdılar. Dolayısı ilə hələ sovet dövründə bu dəhliz bir növ Azərbaycana məxsus idi. Həmçinin qatar dəhliz boyunca Rusiya sərhəd qoşunları tərəfindən hər vaqonun qapısında bir əsgər olmaqla İmişli rayonunun Bəhramtəpə stansiyasına qədər müşayiət olunurdu. Bu faktlar Zəngəzur dəhlizinin iki mühüm xüsusiyyətini bir daha təsdiqləyir. Birincisi, yolun strateji və təhlükəsizlik baxımdan nə qədər əhəmiyyətl daşıdığıdır. İkincisi isə bu yolun tarixən və texniki baxımdan Azərbaycana aid olması faktıdır.

Azərbaycanın dəhlizin təhlükəsizliyini təmin etmək təşəbbüsü var. Ermənistan tərəfi dəhlizin hüquqi rejimi və təhlükəsizlik məsələləri ilə bağlı manipulyasiyalara son qoymalıdır. Ən mühüm zəmanət isə Qərbi azərbaycanlıların Zəngəzur dəhlizi boyunca tarixi torpaqlarına qayıtmaları və dəhlizin onların təhlükəsizliyi ilə birlikdə qorunmasıdır. Bu, eyni zamanda, Ermənistanla Azərbaycan arasında etimad mühitini gücləndirəcək və uzunmüddətli sülhə zəmin yaradacaq. ■

Respublika .- 2025.- 29 iyul (№155).- S.7.